

*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*
**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*
**İlham ƏLİYEV**


Bir parça daş vətəndir!
*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 14 Noyabr 2025-ci il


# Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib

**Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak ediblər. Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirildi. Ümummilli Lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.**

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Dövlətimizin başçısı paradda çıxış etdi.**



## Prezident İlham Əliyevin çıxışı

- Əziz hərbçilər.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən Sizi və bütün Azərbaycan xalqını şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Mənim dəvətimi qəbul edən qardaş ölkələrin rəhbərlərini, nümayəndə heyətlərini səmimiyyətlə salamlayıram.

Bu gün bizim paradda Əziz qardaşım, Türkiyə Cümhuriyyətinin cümhurbaşqanı hörmətli Rəcəb Tayyib Ərdoğan iştirak edir. Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı. Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!" deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Müharibədən və şanlı Zəfərimizdən bir il sonra tarixi Şuşa şəhərində Türkiyə və Azərbaycan prezidentləri Şuşa Bəyannaməsini imzalayaraq bizim əlaqələrimizi ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə qaldırmışlar. Bu gün bizim Hərbi paradda Türkiyə hərbçilərinin iştirakı birliyimizin növbəti təzahürüdür.

Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür.

Dost ölkələrdən gəlmiş bütün qonaqları salamlayıram və onların bu gün bizimlə bərabər olmaları bir daha birliyimizi, həmrəyliyimizi, qarşılıqlı dəstəyi əyani şəkildə göstərir.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı soyqırımı törədilmişdir, etnik təmizləmə siyasəti aparılırdı. Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz sülh danışıqlarını apararkən, eyni zamanda, bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək.

Uzun müddət davam edən danışıqların nəticəsi sıfır olmuşdur. Onun da əsas səbəbi o idi ki, Ermənistan öz xoşu ilə bir qarış torpağı azad etmək fikrində deyildi. Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi, iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı.

Azərbaycanda ictimai-siyasi sabitlik tam bərqərar olmuşdur. Vətəndaş həmrəyliyi, vətəndaş birliyi, xalq-iqtidar birliyi əsas amillərdən biridir. Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik və bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir.

Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir.

Ermənistan isə düzgün nəticə çıxara bilməmişdir və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı. Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər.

44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır. Böyük peşəkarlıq, rəşadət, qəhrəmanlıq və fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik. Bunu döyüş meydanında sübut etmişik. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan Bayrağı bizim Ordumuzu, xalqımızı daha da ruhlandırırdı. Nəhayət noyabrın 8-də "alınmaz qala" sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir. Bizim şanlı Zəfər yürüşümüz 27 sentyabrdan 8 noyabra qədər uğurla davam edirdi. Biz dağlardan, çaylardan, dərələrdən keçərək, sıldırım qayalara dırmaşaraq şanlı Zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan əvvəl azad edilməsi Ermənistan ordusunun belini qırdı və ondan sonra onlar təslim oldular. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan rəsmən təslim olaraq kapitulyasiya aktına imza atdı. Beləliklə, ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik.

Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün "Böyük Qayıdış" Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır.

Mən bütün Azərbaycan xalqını şanlı Zəfərimiz münasibətilə bir daha ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley tədbirində çıxışından*



"Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl Akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövləti ni qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimayyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var. "

# Həsən Mirzəyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir






**Filologiya elmləri doktoru, tanınmış dilçi-türkoloq alim, şair, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, sabiq millət vəkili, professor Həsən Mirzəyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbirdə ADPU-nun elmi heyəti, elm və təhsil qurumlarının nümayəndələri, ictimaiyyət üzvləri iştirak etmişlər.

ADPU-nun rektoru professor Cəfər Cəfərov, Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova, Elmi təşkilati şöbənin müdiri professor İbrahim Bayramov, Türkoloji Mərkəz Türk dilləri şöbəsinin müdiri professor Mirvari İsmayılova, AMEA Nəsimi adını Dilçilik İnstitutunun müdiri professor Nadir Məmmədli, Terminologiya şöbəsinin müdiri professor Sayalı Sadıqova çıxışlarında professor Həsən Mirzəyevin Azərbaycan dilçiliyinin inkişafındakı əvəzsiz xidmətlərini, Dərələyəz mahalının dil xüsusiyyətlərinin, şivələrinin, folklor ənənələrinin tədqiqi və elmə qazandırılması sahəsində dəyərli araşdırmalar apardığını, həmin bölgənin ədəbi-mədəni yaddaşının qorunmasında əhəmiyyətli rol oynadığını, bu mənəvi bağlılığın onun həm elmi fəaliyyətində, həm də poetik yaradıcılığında öz əksini tapdığını, Dərələyəz mövzusu onun əsərlərində daim xüsusi yer tutduğunu vurğulamışlar.

Tədbir zamanı Müasir Azərbaycan dili kafedrasının müdiri professor Könül Səmədovanın professor Həsən Mirzəyevin xatirəsinə həsr olunmuş "Qərbi Azərbaycan etnotoponimlərinin arealları" adlı kitabının təqdimatı baş tutmuşdur. 4 dildə nəşr olunan kitabda hal-hazırda Ermənistan ərazisi hesab edilən tarixi Azərbaycan torpaqlarındakı etnotoponimlərin linqvistik təhlili verilmiş, bu ərazilərdə mövcud olmuş bir çox etnonimin türkdilli xalqların adları ilə bağlı olduğu elmi sübutlarla əsaslandırılmışdır.





# Gözlə gələcəyəm bil, Dərələyəz!

**Böyük alimlərin ömrü bitmirzaman yalnız onların ünvanını dəyişir. Azərbaycan filologiyasının inkişafına təməl prinsiplər bəxş etmiş, milli söz və yaddaş mədəniyyətimizin layiqli daşıyıcısı olan professor Həsən Mirzəyev də bu gün aramızda deyil,amma fikirləri kimi irsi də yaşayır. Bu gün biz yalnız keçmişi xatırlamırıq - gələcək elmi nəsillərə örnək olacaq bir irsi yaşadırıq.Azərbaycan elminə, sözə və milli yaddaşa böyük töhfələr vermiş unudulmaz şəxsiyyət - filologiya elmləri doktoru, dilçi-türkoloq alim, şair, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Həsən Mirzə dühasının işığına toplaşmışıq.**

Bu gün biz yalnız bir alimi deyil, bütöv bir məktəbi, elmə xidmət fəlsəfəsini, milli ideyanı ömrünün mənasına çevirmiş böyük bir ömür yolunu anırıq. O, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı kimi də daim fərqlənmiş, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmişdir. Heydər Əliyev siyasi məktəbinin davamçısı və təbliğatçısı, 91-lərdən biri olaraq Ulu Öndərin silahdaşı kimi öz ömrünü müstəqilliyimizin qorunub möhkəmləndirilməsinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, haqq-ədalətin bərqərar olmasına həsr etmişdir. Alimin xidmətləri "Şöhrət" ordeni ilə qiymətləndirilmişdir.

Həsən Mirzəyev Azərbaycan türkoloji məktəbinin formalaşmasında, dilçilik elminin inkişafında, toponimika və etnoqrafik tədqiqatların dərinləşməsində mühüm rol oynamış şəxsiyyətlərdən biridir. O, həm yaradıcılığı, həm də şəxsiyyəti ilə Azərbaycan elmi ictimaiyyətində özünəməxsus iz qoymuş bir elm fədaisi idi. Onun alim ömrü sözün həqiqi mənasında "milli yaddaşın keşiyində duran ömür" adlandırıla bilər. Həsən Mirzəyev haqqında danışarkən bir çox məqamları sadalamaq mümkündür: elmi dərəcələri, tədqiqat istiqamətləri, Azərbaycan dilçiliyinə gətirdiyi yeniliklər, yetirdiyi tələbələr, yazdığı kitablar…

Ədəbi mühitdə sevilən söz sənətkarlarından olmaqla Həsən Mirzə özünəməxsus deyim tərzi sergiləyərək hisslərini aydın



şəkildə ifadə edir. Həsən Mirzənin xarakterindən doğan təbiiliyi və səmimiliyi onun misralarına da sirayət etmişdir. Onu yazmağa sövq edirən Vətən dərdi idi... Qərbi Azərbaycanın bir parçası olan Dərələyəzdə dünyaya göz açan şair böyük ayrılığın müqabilində sinəsində Vətənin dərdlərini, ulu əcdadlarımızın nişanəsi, nəfəsi, yadigarı kimi həmin o yerlərin əsl sahiblərindən uzaq düşdüyünü qübar və həsrət dolu misralarla dilə gətirib. Misralarda kədər, qəm-qüssə nə qədər özünə yer almış olsa belə, şair əzəli torpaqlarımıza qayıdışımızın baş tutacağı günə inanır. Həsən Mirzə:

***"Düşmən əlindədir müqəddəs yerim,***
***Ləlim, cəvahirim, abidəm, pirim,***
***Qoy ayağa qalxsın igidim, ərim,***
***Bəlkə bu şad xəbər silə dərdimi."***

deməklə şair ər oğullarımızın ayağa qalxacağı həmin o gündən, gələcək xoş bir soraqdan xəbər verir.

Həsən Mirzəyev yalnız ədəbi əsərlərində deyil, publisistik məqalələrində, parlamentdəki çıxışlarında da Qərbi Azərbaycan həqiqətlərindən,ermənilərin bu torpaqlarda həyata keçirdiyi vəhşiliklərdən bəhs edir. Bu qırğın və qətliamları dəqiq tarixi faktlarla isbatlayan alim, konkret rəqəmlərə müraciət edir, etibarlı mənbələrdə yer alan statistik məlumatlara üz tutur.

Həsən Mirzə doğulub boya-başa çatdığı Dərələyəzi misralarına tez-tez sızdırmaqla o müqəddəs məkanın timsalında bütöv Azərbaycan dərdini dünyaya hayqırır, yurd həsrəti ilə alışıb yanan insanların ağrı-acılarını dilə gətirməklə bərabər, o müqəddəs torpaqlara qayıtmaq arzusunu məqamı gəldikcə misralarında canlandırır. Həmin dərdlərdir ki, onu xəyali olaraq İrəvana, Təbrizə qovuşdurur, Arazın sularına qarışdıraraq Qarabağda, ulu Göyçədə qərarlaşdırır.

Həsən Mirzə təkcə alim deyildi, o, sözün və yaddaşın özünəməxsus bir ada kimi qoruyucusu idi.

Niyə məhz "sözün adası"? Çünki o, ömrü boyu sözə yalnız dil vahidi kimi yanaşmadı. Onun üçün söz - xalqın nəfəsi, tarixin izahı, düşüncənin xəritəsi idi. Həsən Mirzəyev sözün məğzinə enməyi, onu qarış-qarış araşdırmağı, mənşəyini, gedişatını, yaddaşdakı yerini tapmağı özünə missiya seçmişdi. Onun tədqiqatlarında sözlər sadəcə filoloji material deyil, xalqın mənəvi kodunun açarı kimi təqdim olunur. O, sözün içində tarixi, coğrafiyanı, etnosu, mədəniyyəti görürdü. Buna görə də onun əsərləri hələ uzun illər Azərbaycan dilçilik məktəbinin dayaq nöqtələrindən biri olacaq.

Bəs niyə "yaddaşın adası?" Çünki o, yaddaşın itməkdə olduğu yerləri - unudulan toponimləri, əvəzlənən adları, tarix boyu dəyişən coğrafi kimlikləri araşdırıb yenidən üzə çıxarırdı. Hər bir toponim onun üçün bir "tarix fraqmenti", bir "şəhadətnamə" idi. Həsən Mirzəyev Azərbaycan türklərinin məskunlaşma tarixini, etnik izlərini, coğrafi keçmişini adlar vasitəsilə bərpa edirdi. Bu mənada o, yaddaş boşluqlarını dolduran, məhv olmaq təhlükəsində olan sözlərin, adların "qoruyucu adası"na çevrilmişdi.

Onun tədqiqatları bizə bir həqiqəti öyrədir: Yurd bəzən torpaqla deyil, yaddaşla başlanır; o yaddaşın da daşıyıcısı sözdür. Sözün "ada"sı - Həsən Mirzəyev də Azərbaycan humanitar elmi içində özünün müstəqil, bütöv, ardıcıl məktəbini yaratmış, həmin məktəbin ətrafında onlarca araşdırmaçı yetişdirmişdir. Onun mövqeyi heç vaxt dalğalardan - zamanın dəyişkənliyindən asılı olmadı. O, öz yolunu əminliklə, dəqiqliklə və elmi məsuliyyətlə davam etdirdi. Bu mənada "Həsən Mirzə - sözün və yaddaşın adası" ifadəsi həm rəmzi, həm elmi, həm də poetik bir ümumiləşdirmədir.

Həsən Mirzəyev haqqında danışanda görürük ki, o, həyatını elmin quru faktlarına deyil, xalqın nəfəsinə, torpağın izinə, sözün ruhuna həkk etmişdi. Toponimlər onun üçün xəritədə yazılmış adlar deyildi - yurdun yaddaşı, millətin izi, keçmişin danışan səsi idi. Elə buna görə də onun elmi məktəbi bu gün də öz möhkəmliyini, aktualığını saxlayır.

***Səndə mənim bağça-bağım qalıbdır,***
***Keçmişim, tarixim, tacım qalıbdır,***
***Cənnət kimi bir məkanım qalıbdır,***
***Mütləq gələcəyəm bil, Dərələyəz!***
***Çox ötüb keçsə də il, Dərələyəz!***

***Könül HƏSƏNOVA,***
***ADPU-nun Filologiya fakültəsinin dekanı, dosent***

# ADPU-da professor Mahirə Hüseynovanın 65 illik yubileyi keçirildi

## “Mən bu ömrü elə belə yaşadım”

**Noyabrın 4-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd rayon İcmasının sədri, tanınmış dilçi alim, şair, universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın (Nağıqızı) 65 illik yubileyinə həsr olunmuş “Mən bu ömrü elə belə yaşadım” adlı ədəbi-bədii tədbir keçirildi.**

Tədbirdə millət vəkilləri, dövlət rəsmiləri, ali təhsil müəssisələrinin rəhbərləri, təhsil ictimaiyyətinin nümayəndələri, KİV təmsilçiləri, elm adamları, eləcə də universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

ADPU-nun rektoru professor Cəfər Cəfərov açılış nitqində qeyd etdi ki, Mahirə Hüseynova həyatını bütövlükdə Azərbaycan Dövlət Pedaqoji Universitetinə həsr etmiş ziyalılardandır. O, təhsil aldığı bu ali məktəbdə müəllim kimi fəaliyyətə başlamış, kafedra müdiri, dekan və beynəlxalq əlaqələr üzrə prorektor vəzifələrində çalışaraq universitetin elmi və idarəçilik sisteminin inkişafına böyük töhfələr vermişdir. Rektor vurğulayıb ki, professor Mahirə Hüseynova Azərbaycan dilçiliyinin görkəmli tədqiqatçılarındandır. Onun Azərbaycan dilinin fonetik, morfoloji və leksik səviyyələrinin elmi-nəzəri aspektdən araşdırılması, aşıq və el şairlərinin yaradıcılığına dilçilik baxımından yanaşması dilimizin poetik qatlarının elmi müstəvidə öyrənilməsinə mühüm töhfə olmuşdur. Professorun monoqrafiyaları, dərslik və metodik vəsaitləri bu gün də ali məktəblərdə mühüm elmi-metodik mənbə kimi istifadə olunur. Eyni zamanda, Mahirə xanımın ədəbi yaradıcılığı və ictimai fəaliyyəti də onun çoxşaxəli şəxsiyyətini tamamlayır. “Mahirə Nağıqızı” imzası ilə nəşr olunan poetik və publisistik əsərləri onun dərin düşüncəsini, milli-mənəvi dəyərlərə bağlılığını və humanist baxışlarını əks etdirir. Bu, onun həm alim, həm ziyalı, həm də mənəvi dəyərləri qoruyan bir şəxs kimi cəmiyyətimizdə qazandığı hörməti daha da möhkəmləndirmişdir. Cəfər Cəfərov çıxışında həmçinin Mahirə Hüseynovanın beynəlxalq əlaqələr sahəsindəki fəaliyyətinə xüsusi diqqət çəkib. O qeyd etdi ki, M.Hüseynovanın rəhbərliyi ilə ADPU-nun bir çox xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri genişlənmiş, universitetin beynəlxalq nüfuzu artmışdır.

Elm və Təhsil Nazirliyinin aparat rəhbəri Mətin Kərimli, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov və digər çıxışçılar professor Mahirə Hüseynovanın elmi-pedaqoji və ictimai fəaliyyətini yüksək dəyərləndirib, onun həm alim, həm pedaqoq, həm də ictimai xadim kimi Azərbaycan elm və təhsilində çoxşaxəli fəaliyyətindən bəhs ediblər. Bildirildi ki, Mahirə Hüseynova yalnız elmi nailiyyətləri ilə deyil, həm də təhsilin inkişafına, gənc kadrların yetişdirilməsinə və milli-mənəvi dəyərlərin qorunmasına verdiyi töhfələrlə seçilir. Çıxış edənlər vurğuladılar ki, prof. Mahirə Hüseynovanın fəaliyyəti yalnız elmi nailiyyətlərlə məhdudlaşmır, onun elmi və poetik yaradıcılığında milli düşüncənin, dilin saflığının və milli-mənəvi dəyərlərin qorunması məsələləri hər zaman ön planda olub.





Sonra ADPU-nun Filologiya fakültəsinin professoru Təyyar Cavadov yubilyarın zəngin yaradıcılıq yolu haqqında geniş elmi məruzə etdi. Məruzədə vurğulandı ki, M.Hüseynovanın rəhbərliyi ilə aparılan tədqiqatlar müasir filoloji fikrin formalaşmasına, ədəbiyyatın və dilin tədrisində yeni yanaşmaların tətbiqinə şərait yaradıb. Onun elmi məktəbi bu gün də gənc alimlər üçün örnək sayılır.

Tədbirin bədii hissəsində, əvvəlcə, “Azərbaycan Televiziyası”nın Mahirə Nağıqızı yaradıcılığına həsr olunan sənədli filmi nümayiş olunub, “Ana”, “Sənsiz”, “Qərbi Azərbaycan” kimi musiqi və ədəbi nümunələr tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Respublikanın tanınmış incəsənət nümayəndələri Nurəddin Mehdixanlı, Leyla Rəhimova, Tural Əhməd, Gülzar Fərəcova, Elnur Zeynalov, Güllü Muradova, Leyla Quliyeva, Samir Cəfərov, Gülnaz Məmmədova, Aşıq Samirə və digərlərinin ifasında Mahirə Nağıqızının müəllifi olduğu şeirlər və musiqi nömrələri səsləndirildi.

Sonda yubilyar səhnəyə dəvət olunaraq tədbirin təşkilatçılarına, həmkarlarına və qonaqlara minnətdarlığını bildirdi.O, Pedaqoji Universitet ailəsinin bir parçası olmaqdan qürur duyduğunu və bu dəyərin onun həyatında xüsusi yer tutduğunu vurğuladı.



Qeyd edək ki, professor Mahirə Hüseynovanın 65 illik yubileyi münasibətilə Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Dövlət Universiteti, ADPU-nun Quba və Şamaxı filiallarında da yubiley tədbirləri keçirilib.

# DƏRƏLƏYƏZ MAHALININ TARİXİ COĞRAFİYASI

**Qədim türk-oğuz məskəni olan Dərələyəz mahalı hal-hazırda iki rayonu Yeğeqnadzor (Keşkənd) və Əzizbəyov (Vayk) rayonlarını əhatə edir, LakinDərələyəz mahalı tarixən, Naxçıvan xanlığına tabe olduğu vaxt bundan da geniş ərazini əhatə etmişdir.**

Belə ki, Azərbaycanın hal-hazırkı Şərur rayonuna daxil olan Axura, Həmzəli, Həmzəli-Dizə, Yaycı, Cağazir Danzik, Havuş,Günnüt kəndləri, həmçinin stan hökuməti tərəfindən 2 rayona-Keşişkənd (Keşkənd, Yeğeqnadzor) və Paşah (Əzizbəyov) rayonlarına bölündü.

Dərələyəzin indiki sahəsi 2308 kv. km-dir. Bu sahədən 1134 kv.km Yeğeqnadzor (Keşkənd, Keşişkənd rayonunun, 1 174 kv. km isə Əzizbəyov (Paşalı, Vayk) rayonunun payına düşür.

Keşkənd rayonu 1931-ci ildən 1935-ci ilə qədər Keşişkənd, 1935-ci ildən 1956-cı ilə qədər Mikoyan, 1956-cı il oktyabrın 12-dən Əzizbəyov, 1957-ci ildən sonra isə Yeğeqnadzor (Qamışlı dərə) adlandırılmışdır, Əzizbəyov rayonu isə 1931-ci ildən Paşalı, 1956-ci ildən Onun ətraf və sərhədlərində Ağmanqan, Əyricə, Selimin gədiyi, Şahabbas / Səlimin karvansarası, Yanığın düzü, Xaridığın yalı, Dəmirtəpə, Qaraçı yurdu, Təzəkli, Murtuza yurdu, Soğanlı, Qaçaq qayası, Xalaclar yurdu, Versin dağı, Dikpilləkən, Bərkdərə, Əyri yol, Soyuqbulaq, Sarı yer, Muradtəpə, Keçəldağ, Qırxbulaq, Qısır dağ, Quşçubilək, Biçənək aşırımı, Batabat və s. yüzlərlə oğuz türklərinə məxsus dağlar, yaylaqlar, aşırımlar, yollar vardır.

Arpa çayının iki böyük qolu mənbəyini Dərələyəzin sərhədlərindən götürüb Şərur ərazisində Araz çayına tökülür.




Ermənistanın Vedi rayonunun Çanaxçı, Hortun, Bağçacıq, Cəfərli, Qaşqa, Keşiş viranı və bəzi digər kəndləri də həmin vaxt Dərələyəz mahalına daxil idi.1 Şərur-Dərələyəz qəzası İrəvan Quberniyasına daxil edildikdən sonra isə bu kəndlər, Şərur və Vedi rayonu ərazisinə qatıldı. Əlavə edək ki, uzun müddət Dərələyəz mahalı ilə Şərur bir inzibati bölgüyə aid edilmiş və bu gah Naxçıvan əyalətinin, gah da İrəvan quberniyasının "Şərur-Dərələyəz" qəzası adlandırılmışdır. Qəzanın mərkəzi isə Şərurun Baş Noraşen (Cəlilkənd) kəndi olmuşdur.

Türk-oğuz yurdu olan Dərələyəz 1920-ci ilə qədər Azərbaycanın tərkibində idi. 1920-ci il noyabrın 29-da Ermənistan Sovet Respublikası yaranarıda rus şovinistləri və erməni daşnaklarının, xüsusən, türk düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları ilə birlikdə Dərələyəz də Azərbaycandan alınıb Ermənistana verildi. 1931-ci il oktyabrın 15-də Dərələyəz Ermənistan Əzizbəyov, 1988-ci ildən Vayk adlandırılmışdır. 1957-ci ildə rayonlar yenidən ayrıldı. Konfransda ermənilər Yeğeqnadzor rayonuna yenidən Mikoyanin adının verilməsini təklif etdilər. Lakin bu adı Moskva təsdiq etmədi. Bir müddətdən sonra bu adı dəyişdirib rayona Yeğeqnadzor (Qamışlı dərə) adı verdilər. Paşalı rayonuna isə yenidən Əzizbəyovun adı verildi. Əzizbəyovun adının əvvəlcə hər iki birləşmiş rayona, sonra isə təkcə Paşalı rayonuna verilməsi bu iki rayonda olan şovinist ermənilər çox narahat edirdi. Bu adı dəyişməyə çalışırdılar. Hətta iki rayon birləşəndə də bu baqda çox mübahisələr oldu. Nəhayət, 1991-ci ildə Əzizbəyovun adını götürüb rayona Vayk adı verdilər.

Dərələyəz mahalı 9 rayonun – Şərur, Sədərək, Babək, Şahbuz, Kəlbəcər, Vedi (Ararat), Qaranlıq (Martuni), Basarkeçər (Vardenis), Qarakilsə (Sisyan) rayonunun əhatəsində yerləşir, çox böyük bir ərazini əhatə edir.

Dərələyəz mahalı yüksək dağ silsilələri ilə əhatə olunmuşdur.

Dərələyəz yeraltı və yerüstü sərvətləri ilə də zəngindir. Burada böyük ehtiyatlara malik olan qızıl, gümüş, molibden, zəy yataqları böyük meşəliklər, bütün növ meyvə bağları vardır. Maldarlıq-qoyunçuluq, taxılçılıq, arıçılıq, tütünçülük, xalçaçılıq, quşçuluq geniş şəkildə inkişaf etmişdir. İnşaat materialı üçün ağacı və daşı boldur. Dərələyəz yabanı meyvələrlə və dərman bitkiləri ilə də zəngindir. Zəngin flora və faunası olan Dərələyəzin meşələrində, dağlarında vəhşi heyvanlar, quşlar çoxdur. Dərələyəzin qızılala (farel) balığı, dağ keçisi və arğalısı, xınalı və qu kəkliyi, sərin bulaqları, müalicə suları (Səfolar və Gədikvəng isti suyu) dillərdə əzbərdir. Qafqazı qarış-qarış gəzən, Qafqazın tarixi, coğrafiyası, toponimləri…, haqqında sanballı kitab yazan, Dərələyəzə yaxından bələd olan İ.Şopen yazır ki, Dərələyəz Qafqazın İsveçriyasıdır.

*Həsən Mirzəyevin*
*"Qərbi Azərbaycanın*
*Dərələyəz mahalı" kitabından*



# Vahid Əziz-80

**Vahid Əziz 1945-ci il noyabrın 23-də Ermənistanın Dərələyəz mahalının Əzizbəyov rayonunun Əzizbəyov kəndində qulluqçu ailəsində anadan olmuşdur. Azərbaycanın Tərtər rayonuna köçdüklərindən orta məktəbi orada bitirmişdir (1963). Əmək fəaliyyətinə Əli Bayramlı şəhərində Şirvanneft trestində başlamışdır (1963–1964).**

Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (1971). "Xəbər Mətbuat Agentliyi"ndə müxbir (1971–1976), Bakı şəhər Partiya Komitəsində təbliğat və təşviqat şöbəsində təlimatçı (1976–1982), Azərbaycan KP Mərkəzi Komitəsində təlimatçı, mətbuat bölməsinin müdiri (1982–1989), Azərbaycan Dövlət Mətbuat Komitəsində sədr müavini (1989–1991) vəzifələrində çalışmışdır.

Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin katibi olmuşdur (1991–1997). Bakı şəhər İcra hakimiyyətinin Reklam və Şəhər tərtibatı Departamentində "Reklamların Azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri olmuşdur. Dağlıq Qarabağ üzrə respublika təşkilat komitəsinin üzvüdür (1989-cu ildən). İnqilabdan əvvəl görkəmli rus ədiblərinin erməni - Azərbaycan münasibətlərinə dair yazdıqları əsərlərin yenidən nəşrini bilavasitə təşkil etmişdir.

"Oğuz eli" ədəbi-publisistik qəzetin işıq üzü görməsinə ciddi köməyi olmuşdur. Bakıda keçirilən Beynəlxalq-biznes konqresinin təşkilat komitəsi qərargahının rəisi olmuşdur (1991). "Ergün" firmasını, eyni adlı nəşriyyatı təsis etmişdir. Burada bazar iqtisadiyyatı ilə sıx bağlı olan sorğu, lüğət kitablarını, müasir Avropa və Amerika iqtisadçılarının əsərlərini kütləvi tirajla nəşr etdirmişdir.

Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirindən sonra başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. Son illər 200-dən çox publisistik məqaləsi və müsahibəsi dərc olunmuşdur. Yeni şeirlərlə vaxtaşırı çıxış etmişdir. Sözlərinə bəstələnmiş mahnıların diski buraxılmışdır. "Dözmək olmur" (1997) şeirlər kitabı rəğbətlə qarşılanmışdır. Bədii tərcümə ilə də məşğul olur. 40-dan çox mahnısına musiqi bəstələnmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmuşdur.

24 may 2019-cu ildə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən" Azərbaycan Respublikasının xalq şairi" fəxri adına layiq görülmüşdür. 30 dekabr 2020-ci ildə İlham Əliyevin sərəncamı ilə Azərbaycan ədəbiyyatının inkişafında səmərəli fəaliyyətinə görə Prezidentinin fərdi təqaüdünə layiq görülüb. Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi (1141-2021)" xatirə nişanı ilə təltif edilib. 22 noyabr 2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şərəf" ordeni ilə təltif edilib.

**1953-cü ildə köçürmə prosesi dayandıqdan sonra ermənilər yeni bir hiyləyə əl atdılar: Ermənistan yurdunda olan cavan və ixtisaslı azərbaycanlı kadrlara iş vermədilər. Təhsil və mədəniyyət ocaqlarının bir qismini bağladılar, bir qismini isə məhdudlaşdırdılar. Ermənistan ərazisində boya-başa çatıb Azərbaycanda və başqa şəhərlərdə ali təhsil alan ziyalılara heç bir iş, məsul vəzifə vermədilər, hətta bunlar öz ixtisasları üzrə də iş tapmayıb Azərbaycana və başqa ölkələrə üz tutdular.**

# Dərələyəzin tarixi keçmişi və faciəli günləri

## V mərhələ

Bu dövrdə onların taktikalarından biri də bu idi ki, azərbaycanlıları birbirilə savaşdırsınlar, hər iki tərəfi cəzalandırsınlar və var-yoxlarını əllərindən alsınlar. Mən Yeğeqnadzor rayonunda yüzlərlə belə hadisələrin şahidi olmuşam.

Erməni taktikasının biri də bu idi ki, yüksək vəzifə tutan və xalq arasında nüfuzu olan adamları (məs: Yunis Rzayev, Həbib Həsənov, Qəşəm Quliyev, Əli Həsənov, Novruz Dünyamalıyev və b.) müxtəlif yollarla Bakıya göndərir, Bakıda onlara yaxşı ev və iş düzəldir. Nəyin bahasına olursa-olsun belə adamları Ermənistandan uzaqlaşdırır, yalnız mal-heyvan saxlayan, erməni hiyləsindən baş çıxarmayan adamları saxlayırdılar.

Bu dövrdə erməni millətçiləri Azərbaycan xalqına məxsus tarixi abidələri dağıtmağa, məhv eləməyə, erməniləşdirməyə başladılar. Əzizbəyov və Yeğeqnadzor rayonundakı kəndlərdə çox qədim dövrdən qalmış qəbir daşlarını, qəbiristanlıqlarda sayı-hesabı olmayan qəbirlərin üstündə olan qoç daşlarını, al daşları gecələr maşınlara doldurub aparırdılar. Ələyəz, Qovuşuq, Qabaxlı, Gülüdüz, Sallı və digər kənd qəbiristanlıqları buna canlı misaldır. Çox zaman da deyirdilər ki, bu qəbir daşlarını mühafizə elmək üçün bunlar rayonun diyarşünaslıq muzeyinə aparılmalıdır. Mən 1950-ci illərdə belə hadisələri Yeğeqnadzor rayonunda öz gözümlə görmüş və rayon rəhbərləri ilə mübahisələr də eləmişəm. Hətta Ayısəsi kəndində Alban türklərinə məxsus kilsəsinin daşındakı yazını dəyişərkən ermənilərlə savaşmaq dərəcəsinə gəlmişəm (Ayısəsi kəndi haqqında məlumat verərkən bu hadisəni yazmışam). Bir sözlə ermənilər Dərələyəzdə azərbaycanlılara məxsus olan tarixi abidələrin bir hissəsini öz adlarına çıxmış, bir hissəsini də məhv etmişlər.

Böyük siyasətçi cənab Heydər Əliyev bu dövrü gözəl xarakterizə edərək yazır: "Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut eləməyə çalışırdılar."

1987-ci ilə qədər ermənilər bu taktika ilə işlədilər və 1988-ci ildə açıq təcavüzə keçdilər.

1988-ci ilin sonunda ermənilər 200 mindən artıq azərbaycanlını Qərbi Azərbaycandan silahın və polisin, sovet silahlı qüvvələrinin köməyi ilə öz doğma yurdlarından qovub çıxartdılar." 85 yaşayış məntəqəsini boşaltdılar. 217 nəfər azərbaycanlı bu vəhşi aksiyanın qurbanı oldu".

Eyni taktika Dərələyəzdə də həyata keçirildi. Bu zaman ermənilər Dərələyəzdə çoxlu vəhşiliklər elədilər. Mən bunlardan yalnız şahidi və iştirakçısı olduğum 2 hadisəni qeyd edəcəyəm.

1988-ci ilin sentyabr ayı idi. Dərələyəzdəki qohumlarım Eyyub, Kazım, Əli və Hümmət müəlllim Bakıda bizə gəldilər və söylədilər ki, erməni dəstələri bizi rayona və Şərur tərəfə getməyə qoymurlar. Hətta ermənilər bulud dağıdan topla Ələyəz kəndinə top da atdılar. Topun gülləsi Ələyəz kənd sakini İsmayıl müəllimin evinin yanına düşübdür. Qohumlarım həmin topun mərmilərindən bir xeyli gətirmişdilər. Mən bu top qəlpələrini universitetin yığıncağında müəllimlərə göstərdim. Riyaziyyatçı Musa müəllim və rektor bu barədə MK katibi Ə.Vəzirova və Bakı komendantına məlumat verdilər...



**Həsən Mirzəyev,**
***dilçi-türkoloq, filologiya üzrə elmlər doktoru, professor***

Nəhayət biz Bakıdan xeyli yük maşınları tapıb Dərələyəzə göndərdik və oradakıların bir qismi çox az bir miqdarda əşya götürməklə dağ yolları ilə sağ-salamat çıxa bildilər. Lakin maşın olmadığı üçün camaatın xeyli hissəsi mühasirədə qalmışdı. Noyabr ayında 8 azərbaycanlı kəndinin kişiləri Ələyəz kəndinin altında yığışır və 3 mindən artıq erməni silahlı dəstəsinin qabağını kəsirlər. 4 gün atışma gedir, ov tüfəngləri ilə sərrast güllə atanlar çınqıllıqda ermənilərin qabağını kəsir, qadın və uşaqları axırıncı kəndlərə yığırlar.

Şərurdan və Kəlbəcərdən kömək almaq üçün cavanlardan iki dəstə dağ yolları ilə yola düşürlər. Kəlbəcər və Göyçə tərəfə gedənlər qara düşüb geri qayıdır, Şərura gedən 18 nəfər isə çətinliklə ora çata bilirlər.

Bacımın qaynı Kazım müəllim gecə saat 12 radələrində Naxçıvandan mənə zəng vurub həyəcanlı səslə dedi ki, 8 kənddə qalan əhalini ermənilər mühasirəyə alıblar. Neçə gündür camaat acdır. Yalnız Naxçıvandan gələn bir vertolyot camaata göydən çörək atıb getdi. Mən dərhal Bakıda 131 №-li məktəbin dərs hissə müdiri Telman Əsədova zəng edib dedim ki, Bakı və Sumqayıt şəhərində yaşayan dərələyəzliləri səhər tezdən MK-nın binasının qabağında toplasın.

Səhər tezdən mən toplanan adamlarla birlikdə MK-də qaçqın məsələsinə baxan Fazilin yanına getdim, Vəzirov Moskvada idi. Mən ondan Nazirlər Sovetinin sədri Həsən Seyidovla bizi görüşdürməyi xahiş etdim. Həsən Seyidov əvvəlcə xəbər göndərdi ki, vaxtım yoxdur. Bura yığılanlar nümayişkaranə şəkildə dedilər ki, əgər bu gün Dərələyəzdə bizim qohum-qardaşlarımızın başına bir iş gəlsə bu gecə Bakıda onun əvəzinə birə on nisbətində erməni evi, qəsəbəsi yandırılacaqdı. Bunu eşidən H.Seyidov dərhal əl-ayağa düşüb iki gün əvvəl Naxçıvana Abkomun katibi təyin edilmiş İsayevə zəng etdi və 40-50 böyük yük maşınlarını hərbçilərin müşayiəti ilə Dərələyəzə göndərməyi tapşırdı. Bu zaman Qosplanın müavini Məmmədov İbrahim Xəlil oğlu da İsayevdən xahiş etdi ki, o camaatı ölümdən xilas etsin.

Naxçıvan rəhbərləri dərhal bu işə qoşuldular Əzizbəyov və Yeğeqnadzor rayonundakı azərbaycanlılara kömək və maşın göndərdilər. Əgər həmin kömək gəlməsəydi oradakı 8 kəndin xeyli əhalisini erməni vəhşiləri qıracaqdı. Ermənilər buradakı adamları samosfalt maşınlara doldurub lüt-üryan şəkildə Her-Her kəndinin yanındakı qayalığa tərəf göndərəndə qəflətən Naxçıvandan gələn köməklə qarşılaşır və bunlara xətər yetirə bilmirlər.

1988-ci ildə Dərələyəzdə deportasiyaya məruz, qalanların bir hissəsi Qarabağın Malbinəsi kəndinə, Şuşaya və Xocalıya gəlmişdi. Əksəriyyəti Əzizbəyov rayonundan olan bu qaçqınların bir hissəsi həmin adı çəkilən yerlərdən də təkrarən qaçqın düşdülər və bunların bir çoxu Malıbəylidə, Xocalıda ağır işgəncələrə məruz qaldılar. Dərələyəzin Terp kəndindən Xocalıya pənah aparan və oradan təkrarən qaçmağa məcbur olan 68 yaşlı Əli Orucov deyir:

"Fevralın 25-dən 26-nə keçən gecə ermənilər qəflətən Xocalını hər tərəfdən güllə yağışına tutdular. Dörd tərəfdən gur işıqlarını yandıraraq alov saçan onlarla zirehli texnika və külli miqdarda canlı qüvvə şəhərə doğru yeriyirdi. Qəfil hücumdan çaşıb qalan camaatın ah-naləsi, fəryadı və çığırtısı ərşə qalxmışdı. Hətta hücum o qədər dəhşətli və amansız idi ki, ailə üzvlərinin birlikdə qaçması belə mümkün deyildi. Biz ayaqqabılarımızı geyməyə belə vaxt tapmadıq. Bizimlə üzü Kətik meşəsinə doğru qaçan adamların çoxunu ermənilər arxadan vururdular. Yaralıları götürmək mümkün deyildi. Biz şaxtalı, qarlı gecədə üç gün meşədə qaldıq. Üç gündən sonra ermənilər bizi əhatəyə alıb bir neçəmizi öldürdü, yüzə yaxın adamı isə girov götürdülər. Girovluqda aldığım zərbələrin ağrısı indi də bədənimdən çıxmayıb".

***"Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabından***

# "Qərbi Azərbaycan – əzəli və əbədi Azərbaycan torpağıdır" və "Mənim Qərbi Azərbaycanım" kitablarının təqdimatına həsr olunmuş nümunəvi açıq dərs

***Bakı şəhəri Kürdəxanı qəsəbəsində yerləşən 113 nömrəli tam orta məktəbdə ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan – əzəli və əbədi Azərbaycan torpağıdır" və "Mənim Qərbi Azərbaycanım" kitablarının təqdimatına həsr olunmuş nümunəvi açıq dərs təşkil olunmuşdur.***




Tədbirdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əməkdaşları, Azərbaycan Yazıçılar Birliyinin üzvləri Rövşən Ağayev və Maral Salmanova, pedaqogika elmləri namizədi, dosent Dəyanət Musayev, ADPU Filologiya fakültəsinin Elmi işlər üzrə dekan müavini Gülər Süleymanova, məktəbin direktoru Gültəkin Rüstəmova, tarix və coğrafiya müəllimləri, eləcə də Qərbi Azərbaycandan olan bir qrup valideyn iştirak etmişdir.

Tədbir Qərbi Azərbaycan TV tərəfindən hazırlanan "Qərbi Azərbaycan" mövzusunda videoçarxların nümayişi ilə açılmışdır.

Məktəbin direktoru Gültəkin Rüstəmova açılış nitqində qonaqları salamlayaraq tədbirin məqsədi barədə məlumat vermiş, Qərbi Azərbaycan irsinin, tarixi yaddaşının və milli kimliyin qorunmasının zəruriliyini vurğulamışdır.

Professor Mahirə Hüseynova Qərbi Azərbaycanın tarixinə, bölgənin azərbaycanlılara qarşı törədilən ədalətsizliklərinə, soydaşlarımızın doğma yurdlarından köçürülməsinə və "Qərbi Azərbaycana Qayıdış" ideyasının milli hədəf kimi əhəmiyyəti məsələlərinə toxunmuş, həmçinin qeyd etmişdir ki, gənc nəslin milli yaddaşının formalaşdırılması istiqamətində maarifləndirmə işləri daha da gücləndirilməlidir.

Professor dərslərdə Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli şəxsiyyətləri, toponimləri və folkloru barədə geniş maarifləndirmənin aparılmasının vacibliyini vurğulamış, Elm və Təhsil Nazirliyi ilə Qərbi Azərbaycan İcmasının birgə hazırladığı və cari ilin oktyabr ayında təqdimatı keçirilmiş "Mənim Qərbi Azərbaycanım" kitabının bu işdə mühüm rol oynadığını qeyd etmişdir.

Sonda qarşılıqlı fikir mübadiləsi aparılmış, mövzuyla bağlı aktual məsələlər müzakirə olunmuşdur.

# Qovuşuq kənd qəbiristanlığı




*Qərbi Azərbaycan İrsi kitabı 1-ci cild. "Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair" HESABAT VƏ MATERİALLAR*

**Məkan: Keşişkənd rayonu, Qovuşuq kəndi (Az.) / Vayotsdzor mərzi, Hermon kandi (Erm.)
ID: 082 [MC-128; MC-129], 39.87423, 45.41748/39.87428, 45.41547
Qovuşuq Dərələyəz mahalında
(15 dekabr 1931-ci ildən**

Keşişkənd rayonu, 3 yanvar 1935-ci ilden Mikoyan rayonu, 6 dekabr 1957-ci ilden Yeğeqnadzor rayonu), Alagöz çayının sahilində yerləşən azərbaycanlı kəndi. Kendin adı tarixi man-bələrdə XIX əsrin I yarısından etibarən müsəlman kəndi kimi xatır lanmışdır. Kəndin adı Qavuşuq, Kavuşuq kimi də göstərilmişdir. 1914-cü ilə aid "Qafqaz Taqvimində kənddə 172 nəfər azərbay canlının (menbede "Tatar"-B.B., S.H.) yaşadığı göstərilmişdir. 28 may 1918-ci ildən etibarən, əvvəllər Iravan quberniyası Şərur-Dərələyəz qəzasının II polis sahəsinin Alagöz kənd icmasına aid olan Qovuşuq kəndi Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazilərinə daxil edilmişdir. 1919-cu il iyun ayında Qovuşuq kəndi erməni təcavüzünə məruz qalmışdır. Bu hadisələr nəticəsində kəndin əhalisi və erməni hücumlarından həyatlarını xilas etmək məqsədi ilə kəndə pənah gətirən digər kəndlərdən köçən azərbaycanlı qaçqınlarla birlikdə 50 ailədən ibarət 500 nəfər əhali qətlə yetirilmiş, sağ qalanları isə kəndi tərk etmək məcburiy yətində qalmışdır. Sovet hakimiyyəti dövründə sovet-bolşevik rejimi tərəfindən Ermənistan SSR-nin xeyrinə olaraq sərhədlər də yişdirilmiş və Qovuşuq kəndi də bu ərazilər daxilində qalmışdır. 1921-ci ildə yenidən kəndə geri qayıdan 138 nəfər azərbaycanlı kendi abadlaşdıraraq yaşamağa başlamışdır."

1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına qarşı başlatdığı ərazi iddiaları və etnik




təmizləmə nəticəsində Ermənistan SSR-də azərbaycanlıların yaşadığı bütün yaşayış yerlərindən əhalinin zorla deportasiyası həyata keçirilmişdir. 1988-ci il noyabr ayında Qovuşuq kəndinin 800 nəfərdən çox azərbaycanlı sakinləri də erməni cinayətləri və zorakılığından öz həyatlarını xilas etmək üçün Azərbaycan Respublikasına pənah gətirmişdir." Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin 3 aprel 1991-ci il tarixli qərarı ilə Qovuşuq kəndi Hermon adlandırılmışdır.

***TƏHLİL:***

Məkan təhlili üçün istifadə olunan 3 iyun 1980-ci il KH-9 Hexagon peyk təsviri (sağda yuxarıdakı) əsasında aparılan təh-lillər zamanı qəbiristanlığın əhatə etdiyi landşaftın xüsusiyyətləri öyrənilmişdir. Bu təhlillərin nəticələrinə əsasən, qəbiristanlıq ərazi-si və qəbirüstü abidələri heterojen, xallı səthi ilə təsbit olunmuşdur. Bu dövrdə yol inşası nəticəsində qəbiristanlıq iki hissəyə bölün-müş, bu da onun tarixi və fiziki bütövlüyünü pozmuşdur.

Azərbaycanlı əhalinin kənddən deportasiya edilməsindən sonra qəbiristanlığın vəziyyətini müəyyən etmək məqsədilə 1980-ci il ve 31 iyul 2009-cu il" (GeoEye-1) (sağda aşağıdakı) tarixli peyk təsvirləri əsasında müqayisəli təhlil göstərir ki, 1989-2009-cu illərdə qəbiristanlıqda ciddi dağıntılar baş vermişdir. Qəbirüstü abidələrin böyük əksəriyyətinin 2009-cu il təsvirində hələ də mövcud olduğu təsbit




edilsə də, baş daşlarının kölgəsi izlənmədiyi üçün onların məhv edildiyi və ya zədələndiyi ehtimal edilir. Bu, qəbiristanlığa qarşı həyata keçirilən vandalizm aktlarının izlərini ortaya qoyur.

2009-cu il və 12 avqust 2016-cı il? (WorldView-2) tarixli peyk təsvirlərinin müqayisəsi göstərir ki, bu dövr ərzində qəbiristanlıq ərazisində böyük dəyişikliklər baş vermişdir. 2016-cı il təsvirində qəbirüstü abidələrin artıq mövcud olmadığı aşkar edilmişdir. Bu dəyişikliklər qəbiristanlığın tamamilə yer üzündən silinməsini və sistematik şəkildə məhv edilməsini göstərir.

Beləliklə, müqayisəli təhlillər göstərmiş dir ki, azərbaycanlılar kənddən deportasiya edilməsindən sonra 1989-2009-cu illər arasında qəbiristanlıq sistematik şəkildə məhv edilmişdir. 2009-2016-ci ilə qədər olan dövrdə isə qəbirüstü abidələrin tamamilə yox edilme si prosesi başa çatdırılmışdır. Bu proses, hem tarixi, həm də mədəni irsin ciddi şəkildə məhv edilməsinə gətirib çıxarmış ve vandalizm aktlarının davamlı xarakter daşıdığını göstərmişdir.

***COĞRAFİ LOKASİYA:***

Qovuşuq qəbiristanlıqları kandin qer-bində, Ələyəz kəndindən gələn yolun hər iki hissəsində yerləşir. Bu yer 1974-cü il tarix li (1:50000 miqyaslı) ve 1974-cü il tarixli (1:100000 miqyaslı) sovet topografik xəri tələrində işarələnmişdir. Müəlliflər 1974-cü tarixli topoqrafik xəritədə göstərilən koordinata istinad edərək 1980-ci il tarixli KH-9 Hexagon təsvirində qəbiristanlığı təsbit etmiş və onun dəqiq koordinatını müəyyənləşdirmişdir.




*Əziz Ələkbərli,
filogiya üzrə fəlsəfə doktoru,
millət vəkili,
Səbuhi Hüseynov*

# “Qərbi Azərbaycan məsələsi Azərbaycan təhsili və elmində” mövzusunda dəyirmi masa

***Noyabrın 26-da Bakı Slavyan Universitetində (BSU) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyi münasibətilə etdiyi çıxışda irəli sürdüyü məsələlərə dair elmi müzakirələr aparılıb və “Qərbi Azərbaycan məsələsi Azərbaycan təhsili və elmində” mövzusunda dəyirmi masa keçirilib.***



Dəyirmi masada BSU-nun rektoru Anar Nağıyev, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Hikmət Məmmədov, Milli Məclisin deputatı Sevinc Fətəliyeva, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, Amasiya rayon İcmasının sədri, akademik Abel Məhərrəmov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd rayon İcmasının sədri, professor Mahirə Hüseynova (Nağıqızı), ADPU-nun Filologiya fakültəsinin dekanı, dosent Könül Həsənova, ADPU-nun Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin rəhbəri Leyla Cəlalova, ADPU-nun kafedra müdiri, pedaqoji elmlər doktoru, professor, Ziyalılar Şurasının sədr müavini Fərrux Rüstəmov, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri, professor İbrahim Bayramov, Qərbi Azərbaycan İcması Qadınlar Şurasının sədr müavini, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru, AMEA-nın Abasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı Nazim Mustafa, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü, Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Əfqan Vəliyev, "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin və QHT.az platformasının sədri Cəsarət Hüseynzadə, Qərbi Azərbaycan İcmasının əməkdaşı, tarixçi-alim Səbuhi Hüseynov, BSU-nun professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Tədbirin keçirilməsində məqsəd Qərbi Azərbaycanla bağlı elmi araşdırmaların mövcud vəziyyətini, metodoloji problemləri, mənbələrin sistemləşdirilməsi ilə bağlı çağırışları və gələcək tədqiqat perspektivlərini akademik müstəvidə müzakirə etmək olmuşdur.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Açılış nitqi ilə çıxış edən BSU-nun rektoru Anar Nağıyev qeyd edib ki, cənab Prezident İlham Əliyev AMEA-nın 80 illik yubileyi münasibətilə çıxışında süni intellekt, Vətən müharibəsinin tarixi, Qarabağa və Şərqi Zəngəzura qayıdış, milli kimlik, Azərbaycan tarixi, Azərbaycan dili, Qərbi Azərbaycan məsələləri kimi ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən mövzuları bir daha alimlərin, təhsil işçilərinin və ictimaiyyətin diqqətinə çatdırıb.

Rektor bildirib ki, cənab Prezidentin çıxışları ölkəmizin bu günü və gələcəyi, həmçinin elmin və təhsilin inkişafı üçün strateji yol xəritəsi rolunu oynayır. Bu baxışdan çıxış edərək, Bakı Slavyan Universitetində Qərbi Azərbaycanla bağlı tədqiqatların stimullaşdırılması mexanizmi təsdiq edilib, elmi şuranın qərarı ilə Qərbi Azərbaycan mövzusuna həsr olunmuş dərslik və monoqrafiyaların mükafatlandırılması qaydası təsbiq olunur. Universitet bu istiqamətdə elmi araşdırmaların, tədrisin və beynəlxalq səviyyədə təbliğatın sistemli şəkildə həyata keçirilməsi üçün ardıcıl fəaliyyət göstərir.

A.Nağıyev vurğulayıb ki, BSU-da Qərbi Azərbaycan Tədqiqat



Mərkəzi yaradılıb, mövzu üzrə dərsliklər və fənn proqramları hazırlanır, magistratura səviyyəsində yeni fənlər tədrisə daxil edilib. “Qərbi Azərbaycana Qayıdış” konsepsiyası universitetdə tədris olunan bütün dillərə tərcümə olunaraq müxtəlif beynəlxalq tədbirlərdə təqdim edilir. Özbəkistan, Bolqarıstan, Polşa və digər ölkələrdəki tərəfdaş qurumlar vasitəsilə Qərbi Azərbaycan həqiqətlərinin təbliği üçün xüsusi guşələr və təqdimatlar təşkil olunub. Həmçinin “Azərbaycançılıq və onun aktual məsələləri” adlı ənənəvi konfrans çərçivəsində Qərbi Azərbaycanla bağlı xüsusi panel müzakirələri keçirilir.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin, tarixi faktların, xronoloji mənbələrin, xəritələrin geniş auditoriyalara çatdırılması strateji zərurətdir. Tarixi mənbələrin toplanması, xəritələrin elmi əsaslarla təqdim edilməsi və beynəlxalq səviyyədə təbliği qarşıya qoyulan əsas vəzifələrdəndir. O qeyd edib ki, baş verən proseslər fonunda həm dövlət qurumlarına, həm ictimai təşkilatlara, həm də ali təhsil müəssisələrinə mühüm vəzifələr düşür. Qərbi Azərbaycan İcması da bu istiqamətdə üzərinə düşən missiyanı həyata keçirməkdə davam edir.

Tədbirdə çıxış edən Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, Amasiya rayon İcmasının sədri, akademik Abel Məhərrəmov, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd rayon İcmasının sədri, professor Mahirə Hüseynova (Nağıqızı), Qərbi Azərbaycan məsələsi ilə bağlı BSU tərəfindən görülən işləri yüksək qiymətləndirərək, tədbirin gənclərin tarixi həqiqətlərin dərindən öyrənilməsi və təbliği istiqamətində mühüm rola malik olduğunu bildirmiş, tarixin erkən yaşlardan öyrənilməsinin, toponimlər üzrə geniş araşdırmaların aparılmasının və orta məktəblərdə açıq dərslərin keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamışlar.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Hikmət Məmmədov, millət vəkili və BSU-nun "Roman-german dilləri" kafedrasının müdiri Sevinc Fətəliyeva, Qərbi Azərbaycan İcmasının əməkdaşı, tarixçi-alim Səbuhi Hüseynov, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü, STM-nin sektor müdiri Əfqan Vəliyev, ADPU-nun kafedra müdiri, pedaqoji elmlər doktoru, professor, Ziyalılar Şurasının sədr müavini Fərrux Rüstəmov, QHT sədri Cəsarət Hüseynzadə, BSU-nun Jurnalistika kafedrasının professoru Şəlalə Həsənova, BSU-nun Pedaqogika kafedrasının müdiri Piralı Əliyev mövzu ətrafında çıxış ediblər.

Sonra müzakirə platformasına keçid alan dəyirmi masada mövzu ətrafında maraqlı müzakirələr aparılıb və əldə edilən nəticələr yekunlaşdırılıb.

Tədbbirdən sonra tədbir iştirakçıları universitetin foyesində filologiya elmləri doktoru, tanınmış dilçi-türkoloq, Azərbaycan Respublikasının Əməkdar Elm xadimi Həsən Mirzəyevin zəngin elmi fəaliyyətini və həyat yolunu əks etdirən məlumat xarakterli xatirə lövhəsinin açılışında iştirak ediblər.

**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
*Baş redaktorun müavini*
**Leyla Calalova**

*Məsul katib*
**Möhübbət Məmmədov**
*Korrektor*
**Aynurə Babayeva**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA
**Ünvanımız:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**